

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 92 (23.504)

*16 iyun 2020-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda Milli Qurtuluş Günü qeyd olunub

### *Sosial qayğıya ehtiyacı olanlara mənzil və avtomobillər təqdim edilib*

Milli Qurtuluş Günü Azərbaycanın dövlətçilik tarixində mühüm mərhələ təşkil edir. Ölkəmizin və xalqımızın bugünkü xoş və firavan həyatı ümummilli liderimiz Heydər Əliyevin xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı ilə əsası qoyulan Milli Qurtuluşun bəhrələridir. Bu gün dahi şəxsiyyətin müəyyənləşdirdiyi yol ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir, Azərbaycan dünya birliyində öz layiqli yerini tutur, müstəqilliyini daha da möhkəmləndirir. İnsan amilinə verilən yüksək dəyər, ölkə vətəndaşlarının rahat yaşayışının təminatı ulu öndər Heydər Əliyev siyasi xəttinin əsasını təşkil edir. Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında qayğıya ehtiyacı olanların mənzil və avtomobillərlə təmin olunması da həyata keçirilən sosial siyasətin tərkib hissəsidir.



İyunun 15-də – Milli Qurtuluş Günündə Naxçıvan şəhərində Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı sağlamlıq imkanları məhdudlaşmış 1 nəfərə mənzil, hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlıq imkanları məhdudlaşmış 1 nəfərə, Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi uğrunda sağlamlıq imkanları məhdudlaşmış 3 nəfərə, eləcə də Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə "NAZ Lifan-330" markalı minik avtomobilləri təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək demişdir ki, muxtar respublikada sağlamlıq imkanları məhdud şəxslərin sosial müdafiəsi gücləndirilir, onların cəmiyyətə inteqrasiyası diqqət mərkəzində saxlanılır. Cari ildə müvafiq kateqoriyalı 189 nəfərin bərpa mərkəzlərində müalicələri təşkil edilmiş, 111 şəxsə müalicə müəssisələrinə göndəriş verilmiş, 126 nəfər texniki reabilitasiya vasitələri, 139 nəfər protez-ortopedik məmulatlarla təmin edilmişdir. Sosial qayğıya ehtiyacı olan 324 nəfərə evlərində, 7 nəfərə Ahıllar Evində sosial-məişət xidməti göstərilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə 6 ailəyə fərdi yaşayış evləri və mənzillər, 17 nəfərə minik avtomobilləri təqdim edilmişdir. Nicat Babayev sağlamlıq imkanları məhdud şəxslərə göstərilən qayğıya görə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbir iştirakçılarını 15 İyun – Milli Qurtuluş Günü, eləcə də mənzil və avtomobillərlə təmin olunmaları münasibətilə təbrik edərək demişdir: 15 İyun – Milli Qurtuluş Günü Azərbaycan xalqının və dövlətinin həyatında dönüş tarixidir. Əgər Qurtuluş Günü olmasaydı, nə Azərbaycan olacaqdı, nə də ölkəmiz bugünkü inkişaf səviyyəsinə gəlib çata biləcəkdi. Ulu öndərimiz Heydər Əliyevin ikinci dəfə ölkəmizdə siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan yenidən Azərbaycana qaytarıldı. Nəticədə, sabitlik, inkişaf və tərəqqi təmin edildi, Azərbaycan inkişaf etmiş dövlətlər sırasında layiqli yerini tutdu.



Ali Məclisin Sədri demişdir: Vətən qarşısında xidməti borclarını layiqincə yerinə yetirmiş şəxslər dövlətimiz tərəfindən layiqincə qiymətləndirilir, onlara mənzil və avtomobillər təqdim edilir. Bütün bunlar Azərbaycanda Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsinin və ölkəmizin iqtisadi qüdrətinin nəticəsidir. Eyni zamanda dövlət və Vətən qarşısında xidməti olanlara göstərilən bu qayğı gənclərimiz üçün də nümunədir.

Ali Məclisin Sədri mənzil və avtomobillə təmin olunanlara təşəkkürünü bildirmiş, mənzilin orderini və avtomobillərin açarlarını təqdim etmişdir.

Avtomobillə təmin olunan Namiq Kərimov demişdir ki, muxtar respublikamızda sağlamlıq imkanları məhdud şəxslərin sosial rifahı, məişət şəraiti günbəgün yaxşılaşır. Biz bunu həyatın bütün sahələrində görür, hərtərəfli diqqət və qayğını daim üzərimizdə hiss edirik. Bütün bu işlər ümummilli liderimiz Heydər Əliyev siyasətinin uğurlu nəticələridir. Namiq Kərimov Milli Qurtuluş Günündə avtomobillə təmin olunduğu üçün qürur və sevinc hissləri keçirdiyini bildirmiş, ailə üzvləri adından minnətdarlıq etmişdir.

Avtomobillə təmin olunan Musa Hətəmov demişdir: "Muxtar respublikamızda vətənimizin azadlığı və ərazi bütövlüyünün qorunması zamanı sağlamlığını itirənlərə, şəhid ailələrinə dövlətimiz tərəfindən göstərilən qayğı insan amilinə verilən dəyərin təzahürü, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət siyasətinin davamıdır. Biz şahidiyik ki, ulu öndər Heydər Əliyev ən çətin məqamda Naxçıvana sahib çıxdı, onu düşmənin hücumlarından qorudu və inkişaf yoluna yönəltdi. Bu gün bu yol Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən muxtar respublikada uğurla davam etdirilir və Naxçıvan günbəgün inkişaf edir. İnsanların güzəranı hər gün daha da yaxşılaşır. Göstərilən diqqət və qayğının növbəti nümunəsi olan və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə ikinci qayıdışının 27-ci ildönümündə keçirilən bu tədbir də bizim üçün ikiqat sevinc, ikiqat bayramdır". Musa Hətəmov ailə üzvləri və tədbir iştirakçıları adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Sonda xatirə şəkli çəkdirilmişdir.

Naxçıvan şəhərində yerləşən 3 otaqlı mənzil tam təmir olunmuş, lazımi kommunal-məişət şəraiti yaradılmışdır. Mənzillə təmin olunan ailəyə xalça hədiyyə olunmuşdur.

## Heydər Əliyev Muzeyindəki rəsm əsərlərindən və xalçalardan ibarət sərgi açılıb





Milli Qurtuluşdan ötən dövrdə Azərbaycan yüksək inkişaf yolu keçmiş, bütün sahələrdə böyük uğurlar qazanılmışdır. ***"Bütün həyatımı təhlil edəndə görürəm ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində məhv olmağa qoymamışam"***, – deyən ümummilli lider Heydər Əliyevin ideyalarına sədaqət digər sahələr kimi, mədəniyyətimizin, rəssamlıq sənətinin də inkişafına səbəb olmuşdur. Bu gün yaradıcı insanlar, rəssamlar da ulu öndər Heydər Əliyevə sevgi və ehtiramlarını öz əsərlərində yaşadırlar.

İyunun 15-də Milli Qurtuluş Günü münasibətilə Heydər Əliyev Muzeyinin qarşısında muzeyin fondunda saxlanan rəsm əsərlərinin və xalçaların sərgisi açılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sərgiyə baxmışdır.

Bildirilmişdir ki, Heydər Əliyev Muzeyində dahi şəxsiyyətin siyasi irsini, həyatını və ömür yolunu əks etdirən dəyərli eksponatlar saxlanılır. Muzeyin fondunda ümummilli liderlə bağlı tarixi sənədlərlə yanaşı, həm də Ona həsr olunmuş rəsm əsərləri, portret və xalçalar da mühafizə edilir.

Sərgidə Heydər Əliyev Muzeyinin fondunda mühafizə olunan 20 portret və 3 xalça nümayiş etdirilir. Ulu öndərə həsr olunmuş portretlər yağlı boya ilə kətan, sulu boya ilə kağız, parça üzərində quaş və qarışıq texnika ilə işlənmişdir. Sərgidə rəssamlardan Səyyad Bayramovun, Əli Səfərovun, Cavid İsmayılovun, İlham Mirzəyevin, Firudin Quliyevin,

*Ardı 2-ci səhifədə*

Şamil Mustafayevin ulu öndərə həsr edilən "Heydər Əliyev", "Ömür yollarında", "Mənalı ömür", "Prezident Heydər Əliyev", "Şərqin günəşi", "Ümummilli lider Heydər Əliyev" rəsm əsərləri, ulu öndərin rəngli qaşlarla və muncuqla işlənmiş portretləri, həmçinin "Nəvə", "Qayıdışın mübarək", "Nurlu gələcək" adlı xalçalar yüksək sənətkarlıq xüsusiyyətləri ilə seçilir.

Sərgi ilə tanışlıqdan sonra Ali Məclisin Sədri demişdir: Ölkəmizdə ümummilli liderimizə həsr olunmuş minlərlə rəsm əsəri, portret vardır. Bu da Vətəninə, xalqına, dövlətinə ləyaqətlə xidmət edən dahi şəxsiyyətə olan xalq sevgisinin nəticəsidir. Ümummilli liderimiz Heydər Əliyevin ömür yolu Vətənə və xalqa xidmət nümunəsidir. Çünki ulu öndər Azərbaycan dövlətinin qurucusudur. Bu gün də Azərbaycan ulu öndərin yolu ilə gedərək inkişaf edir. Ölkəmizin gələcək inkişafı da dahi şəxsiyyətin ideyalarının davamındadır. Ümummilli liderin özünün də dediyi kimi, ***"Nə qədər ki, Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam".***

"15 İyun – Milli Qurtuluş Günü, sadəcə, rəhbərin hakimiyyətə gəldiyi gün deyil. 1993-cü il iyunun 15-də Azərbaycan dövlətinin həyatında dönüş və qurtuluş tarixinin əsası qoyulub. Milli Qurtuluşa Azərbaycan xalqının görkəmli şəxsiyyəti Heydər Əliyevin və vətənpərvər insanların zəhməti hesabına nail olunub. Milli Qurtuluş Günü Azərbaycan dövlətini parçalanmaq və məhv olmaqdan xilas etdi", – deyən Ali Məclisin Sədri Milli Qurtuluş Günü münasibətilə təbriklərini çatdırmış, sərgilərin davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş tədbirlər keçirilib



***AMEA Naxçıvan Bölməsində muxtar respublikanın ali təhsil müəssisələri, Naxçıvanşünaslıq Mərkəzi, Heydər Əliyev Muzeyi, Heydər Əliyev adına Hərbi Lisey və Heydər Əliyev adına tam orta məktəbin iştirakı ilə "Qurtuluşdan intibaha" mövzusunda onlayn elmi konfrans keçirilib.***

Tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq 15 İyun – Milli Qurtuluş Günü münasibətilə təbriklərini çatdırıb.

"Ümummilli lider müstəqil Azərbaycan dövlətinin xilaskarı" mövzusunda məruzə edən akademik 1990-cı ilin əvvəllərində ölkənin üzləşdiyi siyasi böhrandan söz açıb, ulu öndərin xilaskarlıq missiyasından geniş danışıb. Bildirilib ki, ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədə mövcud ictimai-siyasi vəziyyət gərgin idi, bütün sahələrdə xaos, hərc-mərclik baş alıb gedirdi, vətəndaş müharibəsi təhlükəsi yaranmışdı. Məhz belə bir ağır ictimai-siyasi şəraitdə bütün həyatını doğma Vətəni Azərbaycana həsr etmiş ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdaraq Milli Qurtuluşumuzun əsasını qoydu.

Akademik İsmayıl Hacıyev ölkəmizin Milli Qurtuluş Günündən başlanan hərtərəfli və sürətli inkişafından, xarici siyasətdəki uğurlardan, vətəndaşların rahatlığı naminə həyata keçirilən qlobal layihələrdən söz açıb. Vurğulayıb ki, ulu öndərin çoxşaxəli siyasəti Azərbaycanın müstəqilliyinin əbədiliyini təmin etməklə yanaşı, ictimai-siyasi sabitliyi bərqərar etdi, ərazi bütövlüyünü qorudu, ordunu möhkəmləndirdi. 1993-cü ildən sonra Azərbaycan iqtisadiyyatı uğurla inkişaf etdi, əhalinin sosial-iqtisadi vəziyyəti yaxşılaşdı, yeni iş yerləri yaradıldı, sərhədlərin təhlükəsizliyi təmin edildi, ölkənin hər bir yerində tikinti-quruculuq, abadlıq və bərpa işləri həyata keçirildi. Bütün sahələrlə yanaşı, tarixə, mədəniyyətə, elm və təhsilin inkişafına da diqqət artırıldı.

Qeyd edilib ki, Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının son illərdə bütün sahələrdəki yüksək inkişafı dahi öndər Heydər Əliyevin parlaq ideyasının təzahürüdür.

Konfransda Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev "Ulu öndər Heydər Əliyev və Azərbaycan tarixi məsələləri", Naxçıvan Müəllimlər İnstitutunun rektoru, pedaqogika üzrə fəlsəfə doktoru Azad Novruzov "Ümummilli lider Heydər Əliyev və müasir Azərbaycanın təhsili", "Naxçıvan" Universitetinin rektoru, filologiya üzrə fəlsəfə doktoru Nurlana Əliyeva isə "Müasir tariximizin dönüş nöqtəsi" mövzularında məruzələrlə çıxış ediblər.

Çıxışlarda vurğulanıb ki, Azərbaycan dövlətini məhv olmaq təhlükəsindən xilas edən dahi şəxsiyyət Heydər Əliyev tərəfindən müəyyənləşdirilən inkişaf strategiyası hazırda ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qeyd edilib ki, Naxçıvanda əldə olunan sosial-iqtisadi inkişaf, aparılan ordu quruculuğu, dövlət gənclər və təhsil siyasəti, məqsədyönlü kadr hazırlığı məsələlərində qazanılan uğurlar Milli Qurtuluş Gününün bəhrələridir. Müasir Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası bu gün əldə etdiyi bütün uğurlara görə ulu öndərimizin 1993-cü ildə ali hakimiyyətə qayıdışına, Milli Qurtuluş Gününə borcludur.

Tədbirin sonunda Heydər Əliyev Muzeyinə virtual səyahət olub.

***AMEA Naxçıvan Bölməsinin Beynəlxalq əlaqələr və informasiya şöbəsi***

* * *



*"Naxçıvan" Universitetində 15 İyun – Milli Qurtuluş Gününə həsr olunan "15 iyundan başlanan qurtuluş yolu" mövzusunda keçirilən onlayn elmi konfransı giriş sözü ilə ali təhsil ocağının rektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Nurlana Əliyeva açıb.*

Rektor Azərbaycanın müstəqillik tarixinin ən şanlı səhifələrindən biri olan Milli Qurtuluş Gününün əhəmiyyətindən danışıb, ümummilli lider Heydər Əliyevin xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdışından sonra Azərbaycanın qısa zamanda iqtisadi sabitlik və inkişafa qədəm qoyduğunu diqqətə çatdırıb.

Ümumi tarix kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru Mehman Şabanovun "Ümummilli lider Heydər Əliyev və Azərbaycanın Qurtuluşu" və kafedranın müəllimləri Gülçin Ağayevanın "XX əsrin 90-cı illərində Azərbaycanda baş verən siyasi hadisələr", Rəna Qurbanovanın "15 iyun müasir tariximizin nöqtəsidir" mövzularında məruzələri dinlənilib.

Bildirilib ki, Milli Qurtuluş Günü ulu öndərin böyük bacarığı, xilaskarlıq missiyası ilə Azərbaycanı Azərbaycana qaytarmaq tarixidir. Xalqın təkidli tələbi ilə hakimiyyətə gələn ulu öndər bütün qüvvəsini problemlərin həllinə, Vətəni və xalqı düşdüyü fəlakətli vəziyyətdən xilas etməyə yönəltdi, canı qədər sevdiyi Azərbaycan xalqı üçün fədakarlıq mübarizəyə başladı. Azərbaycana ikinci rəhbərliyi dövründə – cəmi 10 il ərzində ümummilli liderimizin həyata keçirdiyi möhtəşəm tədbirlər, Vətən və xalq naminə gördüyü misilsiz işlər neçə-neçə qərinəyə, əsrə bərabərdir.

**Seyfur HACIMURADOV**

***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda 15 İyun – Milli Qurtuluş Gününə həsr olunan "Yurdumun rəngləri" albom-kataloqun təqdimat mərasimi keçirilib.***





Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının sədr müavini Surə Seyid çıxış edərək bildirib ki, dövlətçilik tariximizə qızıl hərflərlə yazılan 15 iyun 1993-cü il – Milli Qurtuluş Günündən ötən dövr ərzində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan və möhtəşəm iqtisadi uğurlara imza atan dövlət kimi tanınır.

Vurğulanıb ki, bu gün Naxçıvan Muxtar Respublikasında zəngin keçmişə malik olan rəssamlıq məktəbinin qorunub saxlanılması və inkişafı üçün ardıcıl tədbirlər görülür, yaradıcı şəxslərin sənətinə dəstək verilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il mayın 25-də imzaladığı "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi ilə əlaqədar Rəsm Festivalının keçirilməsi haqqında" Sərəncamı Rəssamlar Birliyinin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulmasına, Naxçıvanda rəssamlıq sənətinin inkişafına dəstək olan Rəsm Festivalının təşkili və festivala həsr olunmuş albom-kataloqların, internet resurslarının hazırlanmasına imkan verməklə, ümumilikdə, rəssamlığın inkişafı istiqamətində həyata keçirilən çoxşaxəli işlərin davamlılığını təmin edib. Sərəncama əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu və Rəssamlar Birliyinin təşkilatçılığı ilə "Naxçıvan 95" devizi altında festival-müsabiqə keçirilib. Festival-müsabiqəyə təqdim olunan əsərlərdə xalqımızın milli dəyərləri, tarixi keçmişini əks etdirən memarlıq abidələri, son illərin aparılan abadlıq-quruculuq töhfələri və Naxçıvan mənzərələri tərənnüm edilib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxışında qeyd edib ki, mədəniyyət hər bir xalqın mənəvi dünyasının, milli mövcudluğunun əsas atributlarından biridir. Respublikamız müstəqillik əldə etdikdən sonra hər sahədə olduğu kimi, mədəniyyət sahəsində də böyük işlər görülüb. Mədəni irsimizin qorunub saxlanılmasında, inkişaf etdirilməsində, onun geniş təbliğində, dünya miqyasında şöhrət tapmasında qurtuluş missiyasını həyata keçirən böyük şəxsiyyət Heydər Əliyevin əvəzsiz xidmətləri var.

Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxışında qeyd edib ki, ötən il oktyabrın 3-də Naxçıvan şəhərindəki "Saat Meydanı" turistik istirahət mərkəzində naxçıvanlı rəssamların "Naxçıvan Muxtar Respublikası – 95" devizi altında "Yurdumun rəngləri" adlı Rəsm Festivalı və eyniadlı müsabiqə keçirilib, qaliblər mükafatlandırılıb. Məhz bu gün Rəssamlar Birliyində təşkil olunan "Yurdumun rəngləri" adlı albom-kataloqun təqdimatı da şanlı tariximizin bəhrəsi və töhfəsidir.

Sonra "Yurdumun rəngləri" müsabiqəsinin iştirakçıları və qaliblərinə eyniadlı albom-kataloq hədiyyə edilib, sərgiyə baxış olub.

Qeyd edək ki, "Yurdumun rəngləri" albom-kataloqun və rəssamların əl işlərinin nümayiş olunduğu sərgi 1 həftə davam edəcək.

Məlumat üçün bildirək ki, ötən il təşkil olunan "Yurdumun rəngləri" Rəsm Festivalına və eyniadlı müsabiqəyə 4 nominasiya – rəngkarlıq, qrafika, plakat və dekorativ-tətbiqi sənət növləri üzrə 29 rəssam 40-a yaxın əl işi ilə qatılıb, qaliblər mükafatlandırılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun dəstəyi ilə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində festivalda nümayiş olunmuş əsərlərdən ibarət "Yurdumun rəngləri" adlı nəfis tərtibatlı albom-kataloq nəşr edilib.

**✍ Nail ƏSGƏROV**

* * *

***İyunun 15-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Milli Qurtuluş Gününə həsr olunmuş onlayn tədbir keçirilib.***



Tədbirin rəsmi hissəsində Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova çıxış edib.

Nazir qeyd edib ki, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətləri misilsiz və əvəzsizdir. Ulu öndərin 1969-cu il iyulun 14-də ölkəmizdə birinci dəfə hakimiyyətə gəlməsi Azərbaycanın inkişaf və tərəqqi, 1993-cü il iyunun 15-də xalqın tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı isə Milli Qurtuluş tarixinə çevrilib.

Bayram tədbirinin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestri konsert proqramı ilə çıxış edib. Konsert Müslüm Maqomayevin "Azərbaycan" mahnısı ilə start götürüb. Proqramda Tofiq Quliyevin "Əziz surət", Fikrət Əmirovun "Sevil" operasından Dilbərin ariyası, Rauf Hacıyevin "Sevgilim", Kamal Əhmədovun "Heydər-Xalq", Qara Qarayevin "Böyük xilaskar" əsərləri, "Küçələrə su səpmişəm" xalq mahnısı ilə yanaşı, dünya bəstəkarlarının da musiqiləri ifa edilib.

Xüsusi peşəkarlıqla təqdim olunan musiqili proqramda xor kollektivinin də ifası maraqla qarşılanıb. Konsert rəqs kollektivinin ifasında Eldar Mansurovun "Odlar Yurdu" süitası ilə sona çatıb.

Əsərləri Azərbaycan Respublikasının Əməkdar artistləri Tural Nəcəfov, Mübariz Əsgərov və Gülyanaq Fərzəliyeva, gənc ifaçılar Bəsti Qasımova, İlkin Abdullayev ifa ediblər.

Tədbir Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin və Naxçıvan televiziyasının rəsmi internet resurslarında və sosial şəbəkə hesablarından canlı olaraq yayımlanıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

* * *

***Milli Qurtuluş Gününə həsr olunmuş Naxçıvan Muxtar Respublikası məktəblərinin şahmatçıları arasında komanda birinciliyinə yekun vurulub.***

Komanda birinciliyi şahmatçılar arasında dostluq və idman əlaqələrini inkişaf etdirmək məqsədilə Naxçıvan Şahmat Federasiyasının təşkilatçılığı ilə Şərur Rayon Şahmat Məktəbində təşkil edilib.

Turnirdə şahmatçılar böyük həvəslə iştirak ediblər. Hər komanda 4 oğlan və 2 qız şahmatçı ilə mübarizə aparıb. Yekunda Naxçıvan komandası I, Babək komandası II, Ordubad komandası isə III olub.



Qaliblər kubok və diplomlarla mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

# Yol düzgün seçiləndə

## Müstəqillik və qurtuluş tariximizin bəhrələri

*Qoca tarix üçün çox qısa zaman kəsiyi olan 1993-cü il iyun ayının 15-dən ötən dövrdə keçilən yol ölkəmiz üçün yüzilliklə müqayisə edilə bilər. Bu 27 ildə Azərbaycan Respublikası sabaha inamlı addımlar atmaqla sübut etdi ki, qurucu rəhbəri olan bir dövlət öz dövlətçiliyini, müstəqilliyini qorumağa, inkişaf etdirməyə qadirdir. 1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olunsa da, ölkəmiz əsl müstəqilliyinə ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycan Ali Sovetinin sədri seçilməsi ilə qovuşdu. Müstəqilliyimizin, sözün əsl mənasında, qorunub saxlanmasını təmin edən ümummilli lider Heydər Əliyev deyirdi:* ***"Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişafına sərf edəcəyəm".***



Bu dövrə qısa ekskurs etməklə böyük uğurlar qazanılmasının bir daha şahidi oluruq. Bunu muxtar respublikamızda da ən yüksək və davamlı inkişaf müstəvisində görmək mümkündür.

Naxçıvan ölkəmizin elə bir bölgəsidir ki, həmişə qayğıya ehtiyacı olub. Tarixin müxtəlif dönəmlərində bu ehtiyacın heç orta səviyyədə belə, ödənilmədiyi məlumdur. Yalnız ümummilli liderimiz Heydər Əliyev respublikamıza hakimiyyətə gələndən sonra diyarımıza olan münasibət kökündən dəyişdi. O illərdə Naxçıvanın inkişafının təməli qoyuldu. Bu inkişafa yeni vüsətlə daha böyük yüksəlişə isə 1995-ci ildən başlanıldı. Bu gün muxtar respublikada elə bir sahə yoxdur ki, orada genişhəcmli layihələr həyata keçirilməsin, uğurlar qazanılmasın. Dahi öndərlə başlanılan yol bu gün qədim diyarı sürətli tərəqqiyə gətirib çıxarıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sözlərini vurğulamaq istəyirəm: ***"Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar".***

Muxtar respublikamızın sakinləri torpağa bağlı, zəhmətdən qorxmayan, necə deyərlər, daşdan pul çıxarmağı bacaran insanlardır. Üstəgəl, Naxçıvan öz yeraltı və yerüstü sərvətləri, bərəkətli və məhsuldar torpaqları ilə ölkədə ən zəngin bir diyardır. Gəlin görək bu gün həmin sərvətlərdən necə istifadə olunur? Burada da bir məsələni xatırlamağa dəyər: iş təkcə onunla bitmir ki, muxtar respublikada güclü iqtisadiyyata nail olmaq üçün geniş potensial var. Məsələ bu potensialdan necə istifadə etməkdir ki, bunun da son illərdə öz həllini tapması hesabına iqtisadiyyatımız xeyli gücləndi. Bu gün bir qarış torpağımız belə, əkilməmiş qalmır. Kənd təsərrüfatının inkişafına böyük diqqət yetirilir. Hər il muxtar respublikada genişmiqyaslı meliorasiya tədbirləri həyata keçirilir, regiona yeni kənd təsərrüfatı texnikaları gətirilir. Taxılçılığın, kartofçuluğun, heyvandarlığın və digər sahələrin inkişafı üçün yardımlar verilir. Digər tərəfdən yeni emal və istehsal sahələrinin fəaliyyəti genişləndirilir. Bu müəssisələrin məhsulları daxili bazarda yerli istehsalın çəkisini xeyli artırıb. Bəzi məhsullarımız ixrac olunur. Rəqabətədavamlı məhsul istehsalı üçün layihələr həyata keçirilir. Güzəştli kreditlər verilir. Bu isə sosial-iqtisadi sahədə xüsusi çəkisi olan sahibkarlığın inkişafında mühüm amillərdən biridir. Sahibkarlığın inkişafı həm də minlərlə yeni iş yerinin açılmasına şərait yaradır. Bir iş yeri isə bir ailənin yaşayış səviyyəsinin yüksəlməsi deməkdir.

Dövlətin dayağı onun insanlarıdır. İnsanların ehtiyacının ödənilməsi onların muxtar respublikada güclü iqtisadiyyata nail olunmasında fəallığını artırıb. Güclü iqtisadiyyatı olan diyarda inkişafı bütün sahələrdə görmək mümkündür. Elə götürək təhsil sahəsini. Bu sahənin dünənini bu günü ilə müqayisə etməyə dəyməz.

Bəzən düşünürəm: muxtar respublikanın elə bir ucqar dağ və sərhəd yaşayış məntəqəsi yoxdur ki, orada təhsilin inkişafı üçün nə isə edilməsin. Hələ belə ünvanlarda – şəhərdə, rayon mərkəzlərində tikilmiş məktəb binalarından seçilməyən, ən azından ikimərtəbəli binaları deməlirəm. Bu ünvanlarda necə şərait yaradılıb sualının cavabı birmənalıdır.

Bu gün elə bir orta təhsil müəssisəsi yoxdur ki, oradan ali məktəblərə qəbul olmasın. Onu da vurğulamağa gərək var: muxtar respublikada artıq kəmiyyət yox, daha çox təhsilin keyfiyyəti diqqətə çəkilir.

Elə digər sahələrdə də, necə deyərlər, baş verən böyük inqilabi dəyişikliklər bu gün qəlbimizi fərəhlə doldurur. Burada da düşünməli olursan: Naxçıvan elə Naxçıvandır, torpaqları, təbii sərvətləri, soyuq qışı, isti yayı olan Naxçıvan... Bəs niyə sovet dönəmində, istərsə də dövlət müstəqilliyi qazandığımız, lakin hakimiyyət davası gedən ötən əsrin 90-cı illərinin əvvəllərində bu işlərin heç 10-15 faizinə bərabər iş görülməyib? Bu gün muxtar respublikada bir ildə ovaxtkı bir beşillikdən beş dəfə artıq belə layihə öz həllini tapır.

Azərbaycan dövlətçiliyinin intişar tapdığı bu qədim diyar son illərdə keçdiyi sürətli inkişaf yolu ilə, doğrudan da, dövlətçiliyin beşiyi olduğunu sübut edib. Ölkəmizin müstəqilliyi üçün taleyüklü məsələlərin bu diyarda öz həllini tapması bu gün çoxlarına asan görünə bilər. Ancaq Azərbaycanın uçuruma sürüklənmək ərəfəsində olduğu bir vaxtda həmin məsələlərin həll edilməsi cəsarət tələb edirdi. Bu gün qədim diyarımız Naxçıvanda hər bir naxçıvanlı müstəqillik kimi böyük bir nemətin daha da əbədi olması prinsipi ilə yaşayır. Bu prinsip hər birimizin həyat idealına çevrilib. Fərqi yoxdur, istər yüksək postda duranlar, istərsə də sıravi insanlar üçün dövlətçilik, dövlətçiliyə sədaqət ən ali vəzifədir. Hamı bu vəzifəni yerinə yetirməyi özünün vətəndaşlıq borcu sayır. Bu borc uşaq bağçasından tutmuş ali məktəblərədək təlqin olunur. Belə vətəndaşlıq borcunun layiqincə yerinə yetirilməsi dövlətçiliyin, müstəqilliyin sabahına ən böyük zəmanətdir. Bunu ulu öndər belə vurğulayırdı: ***"Çox məmnunam ki, Azərbaycanın müstəqilliyi yolunda yenə də Naxçıvan dayaqdır".***

Bir ucu sərhəd bölgəsi Sədərək, bir ucu bağlar diyarı Ordubad, dağlar qoynunda füsunkarlıq rəmzi olan Şahbuz və digər bölgələrimiz bu gün inkişaf və tərəqqinin yeni müstəvisindədir. Belə inkişaf və tərəqqi isə müstəqilliyimizin, qurtuluşumuzun bəhrələridir. Bu gün rayon mərkəzləri ilə yanaşı, uçqar dağ kəndləri, sərhəd və ən kiçik yaşayış məntəqələri qəsəbə timsalıdır. Müasirləşən kəndlər bugünkü Naxçıvanın nail olduğu sosial-iqtisadi inkişafın göstəriciləridir.

Dünən Naxçıvanın qonağı olanlar bu gün təəccüblərini gizlədə bilmirlər. Hər addımda bir yenilik görmək, hər gün bir təzəliklə rastlaşmaq naxçıvanlılar üçün adi hala çevrilib. Müstəqillikdən bəhrələnən Naxçıvan yenidən qurulduqca daha da gözəlləşir. Xaricdən buraya gələn və yurdumuzun inkişafı barədə bir qədər məlumatı olan bir turistin sözlərini xatırlayıram: – Bu yeniliklər gündəlik olaraq sizin gözləriniz qarşısında baş verdiyi üçün sizə adi görünür. Ancaq bu gözəlliklərin blokada şəraitində yaşayan bir məmləkətdə reallaşması kiçik məsələ deyil. Və bütün bunların təməlində doğma yurda bağlılıq, sevgi və məhəbbət, insan amilinə, yurd amilinə böyük diqqət, müstəqillik ideyalarının bərqərar olması dayanır. Bunun ifadəsidir ki, hər gün, hər saat dəyişən məmləkətimiz başdan-ayağa, sözün həqiqi mənasında, hər sahədə yeni quruculuq donundadır. Gündən-günə sayı artan məktəb, səhiyyə, mədəniyyət ocaqlarının yeni binaları, salınan yeni yaşayış massivləri, yeni emal və istehsal müəssisələrinin həyata vəsiqə alması, insanların məşğulluq probleminin həllinə nail olunması, informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin tətbiqi... Bunlar Naxçıvanın bugünkü mənzərəsidir. Bu mənzərəni cari ilin ilk beş ayının statistik göstəriciləri daha dolğun əks etdirir.

Bəhs olunan dövrdə inkişafı xarakterizə edən əsas göstərici kimi ümumi daxili məhsul istehsalı 1 milyard 7 milyon 285 min 500 manat olub. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə 2189,8 manata çatıb.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə cari ilin ilk beş ayında muxtar respublikada əsas kapitala yönəldilən vəsaitlər 404 milyon 425 min 200 manat təşkil edib.

Qədim diyarımızda müstəqillik illərində həyata keçirilən uğurlu iqtisadi siyasət sənayeləşmə prosesini daha da sürətləndirib, rəqabətədavamlı və ixracyönlü məhsullar istehsal edən yeni müəssisələr yaradılıb. Bəhs olunan dövrdə muxtar respublikada 450 milyon 876 min 500 manat dəyərində sənaye məhsulu istehsal olunub.

Bu dövrdə 57 milyon 105 min 700 manat kənd təsərrüfatı məhsulu istehsal edilib. Nəqliyyat sektorunda yükdaşınması 5 milyon 804 min ton təşkil edib. İnformasiya və rabitə xidmətlərinin həcmi artaraq 21 milyon 931 min 100 manata çatdırılıb. Bunun 17 milyon 449 min 700 manatı mobil rabitənin payına düşüb. Pərakəndə əmtəə dövriyyəsi 565 milyon 652 min 300 manat təşkil edib. Əhaliyə göstərilən ödənişli xidmətlər davam etdirilir. Bu dövrdə 75 milyon 924 min 900 manatlıq xidmət göstərilib.

"İxrac ili"ndə xarici ticarət dövriyyəsi 155 milyon 506 min 400 ABŞ dollarına çatıb. O cümlədən ixrac 128 milyon 159 min 400 dollar təşkil edib.

Muxtar respublikada nail olunan ictimai-siyasi sabitlik, davamlı inkişaf tendensiyası demoqrafik göstəriciyə də təsirini göstərib, 1 may 2020-ci il tarixə əhalinin sayı əvvəlki ilin müvafiq dövrünə nisbətən 3303 nəfər və ya 0,7 faiz artaraq 460294 nəfər olub.

Sadaladığımız rəqəmlər muxtar respublikada qurtuluşla başlanan müstəqillik dövrünün çox cüzi bir hissəsi, qurulanların, yaradılanların bariz ifadəsidir. Qurmaq, yaratmaq isə naxçıvanlıların həyat idealına çevrilib. Çünki yol düzgün seçilib. Bu yol Heydər Əliyev siyasətinə sədaqətin ifadəsidir. Ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvanımızda alternativi olmayan bu doğru yol diyarımızı inkişaf və tərəqqinin yeni müstəvisinə gətirib çıxarıb. Kiçik dövlət sayılan ailədə, uşaq bağçasında, orta məktəbdə, ali təhsil müəssisələrində bu yola sadiqlik yüksək səviyyədə formalaşdırılıb. Naxçıvanda haqq-ədalətin uca zirvələr fəth etməyin ən düzgün yolu olduğu artıq sübuta yetirilib. Bu gün hər bir naxçıvanlının dövlətə və dövlətçiliyə sədaqəti doğru yolda olmasının ifadəsidir. Dövlətə və dövlətçiliyə sədaqəti isə insanların həyat səviyyəsində, yaşayışında bütün çalarları ilə görmək olar. Ulu öndərimizlə başlanan müqəddəs qurtuluş yolu naxçıvanlıların qurub-yaratmaq əzmini günü-gündən yüksəldir, gənclərin, yeniyetmələrin doğma torpağa, xalqa, Vətənə bağlılığını, onun taleyinə cavabdehlik hisslərini gücləndirir, ən qiymətli sərvət olan müstəqilliyimizi qorumağa, onu daha da möhkəmləndirməyə çağırır.

**Muxtar MƏMMƏDOV**

# Muxtar respublikada fövqəladə hallara hazırlıq tədbirləri davam etdirilir

Muxtar respublikada əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə bağlı qarşıya qoyulmuş vəzifələrin icrası may ayında da davam etdirilmişdir. Fövqəladə hallar zamanı fəaliyyəti zəruri olan 40 müəssisə və təşkilatın fövqəladə hallara hazırlığı yoxlanılmış, aşkar olunan çatışmazlıqların aradan qaldırılması üzrə müvafiq tədbirlər həyata keçirilmişdir. Babək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsində kompleks yoxlama, Ordubad və Şahbuz Rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələrində taktiki-xüsusi təlim, Kəngərli, Culfa və Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələrində, eləcə də Mülki Müdafiə Alayı və Xüsusi Riskli Xilasetmə Xidmətində gündəlik həyat və fəaliyyətin təmin edilməsi mövzusunda nümunəvi məşğələlər keçirilmişdir. Avtomobil və xüsusi təyinatlı nəqliyyat vasitələrinin yaz-yay mövsümü istismarı şəraitinə keçidi ilə əlaqədar Mülki Müdafiə Alayının bazasında nümunəvi məşğələ keçirilmiş, təyin olunmuş müddətdə texnikalara qulluq göstərilmişdir.

"Naxçıvan Hərbi Qarnizonu qoşunlarının qarşılıqlı fəaliyyətinin təşkilinə dair Tədbirlər Planı"nın icrası təmin edilərək Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində 8 müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun ixtisasartırma kurslarına cəlb olunmuşdur.

Çimərlik mövsümünə hazırlıqla əlaqədar Uzunoba çimərliyində təmizlik işlərinin aparılmasına nazirliyin struktur qurumlarının şəxsi heyəti cəlb edilmişdir.

Muxtar respublikada pandemiya ilə mübarizə sahəsində görülən işlərlə bağlı keçirilmiş tədbirdə qarşıya qoyulmuş vəzifələrin icrası ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqədə tədbirlər planı hazırlanmışdır. Fövqəladə halların və digər xoşagəlməz hadisələrin qarşısının alınması məqsədilə 8 təhlükə potensiallı obyektdə texniki təhlükəsizliyə əməl olunması yoxlanılmış, aşkar edilmiş texniki təhlükəsizlik qaydalarının pozulması halları aradan qaldırılmışdır. "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni açılacaq şaxtasında texniki təhlükəsizlik tələblərinin həyata keçirilməsinə nəzarət edilmişdir.

Hesabat dövründə muxtar respublikada mülki müdafiə işinin təşkili diqqətdə saxlanılmışdır. Şərur, Culfa, Ordubad rayonlarında və Mədəniyyət Nazirliyində mülki müdafiə sahəsində, habelə Naxçıvan Günəş Elektrik Stansiyasında və ərzaq anbarlarında fövqəladə hallara hazırlıqla bağlı keçirilmiş yoxlamalar zamanı aşkar olunmuş nöqsanlar aradan qaldırılmışdır. 4 rayonda 40 ictimai yaşayış binasının mülki müdafiə təyinatlı zirzəmisinin vəziyyəti yoxlanılmış, 2 müəssisənin inzibati binasının zirzəmisinin pasportu hazırlanmış, 4 tibb müəssisəsində radiasiya təhlükəsizliyinin vəziyyəti yoxlanılmış və 1 tibb müəssisənə radioloji-gigiyenik pasport verilmişdir.

Muxtar respublikada yanğın təhlükəsizliyinin təmin olunması məqsədilə 178 obyektdə diqqətli, 206 obyektdə nəzəri və 47 obyektdə məqsədli yanğın-texniki müayinələr aparılmışdır. Yerli icra hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqədə 4 min 896 yaşayış evinə baxış keçirilərək 54 elektrik və 89 şlanqla çəkilmiş qaz xəttinin yeri dəyişdirilmişdir. Qazla işləyən 4 nasaz suqızdırıcının və 120 tezqatlanan tüstü borusunun istismarı dayandırılmışdır. Daşınmaz əmlakın icbari sığortası ilə bağlı müəssisə və təşkilatlarda izahat işləri aparılaraq 53 obyektdə icbari sığorta müqaviləsinin bağlanılması təmin edilmişdir.

Ot-taxıl biçini kampaniyasına hazırlıq dövründə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və onun rayon bazalarının nümayəndələri ilə birgə biçinə cəlb olunan kombaynlarda və digər kənd təsərrüfatı texnikalarında yanğın-texniki müayinələr aparılmışdır.

Muxtar respublikada tikintisi başa çatdırılmış 8 obyektin istismara hazırlığı yoxlanılaraq "İstismara hazırlıq aktı" tərtib olunmuş, 15 obyektdə işlərin norma və qaydalara uyğun aparılmasına nəzarət edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

Ötən günlərdə “Şərq qapısı” qəzetinin arxivini vərəqləyərkən qəzetin 25 noyabr 1992-ci il tarixli sayında dərc olunan “Səhiyyə xidmətinə diqqət” sərlövhəli müşavirə mətni ilə rastlaşdım. Həmin illəri bu gün müqayisə edərkən qazanılan uğurların miqyasını daha da aydın şəkildə dərk etdim. Yazıdakı ümidsizliyi ifadə edən fikirlərlə tanış olarkən inana bilmirsən ki, blokadanın yaratdığı ağır çətinliklərlə üz-üzə qalan bir məkan bu gün belə uca zirvəyə yüksəlib. Doğrudur, həmin müşavirədə diqqətə çatdırılan çatışmazlıqlar, əsasən, muxtar respublika səhiyyəsindəki mövcud şəraitsizlik müharibənin yaratdığı problemlərlə bağlı idi. Naxçıvanın dünəni ilə bu gününü müqayisə etmək üçün əvvəlcə həmin müşavirədə ulu öndərimiz Heydər Əliyevin dediyi fikirlərə diqqət yetirək:

# Naxçıvan dünən

## Səhiyyə xidmətinə diqqət

***“May ayının 18-dən bu günədək bizim sərhədlərimizdə, xüsusilə Sədərək bölgəsində müharibə gedir. Bu müharibə gah şiddətlənir, gah da zəifləyir. Amma bunun nəticəsində muxtar respublikanın ən böyük kəndlərindən olan Sədərək kəndinin əhalisi qaçqın vəziyyətindədir. Onlar erməni hücumlarından qorunmaq üçün öz kəndlərini məcburən tərk edərək çadırlarda yaşayırlar.***

***Qeyd etdiyim kimi, mayın 18-dən sonra bir çox kəndlərin sakinləri qaçqın vəziyyətindədir. Onlar çadırlarda, vaqonlarda yaşayırlar. Yaşayış şəraitində ərzaqla və tibbi xidmətlə təmin olunmalarında çox çətinliklər var. Sanitariya vəziyyətinin yaxşı olmaması müxtəlif xəstəliklərin meydana gəlməsi təhlükəsi yaradır. Bütün bunlarla yanaşı, mühüm vəzifə ondan ibarətdir ki, həm çadırda yaşayan qaçqınlara, həm də sərhəd döyüşlərində yaralananlara lazımi səviyyədə tibbi yardım göstərilsin. Lakin bu işdə çox ciddi nöqsanlar vardır. Bizim səhiyyə müəssisələri bərbad vəziyyətdədir. Onlar öz işlərini lazımi səviyyədə təşkil edə bilməyiblər. Ona görə də biz təcili olaraq fövqəladə tədbirlər görməliyik. Bu da ondan ibarətdir ki, biz bütün daxili imkanlardan istifadə edib qaçqınlara və yaralılara tibbi yardımı tələb olunan səviyyəyə qaldırmalıyıq”.***

# və bu gün

## Sağlamlıq cəmiyyətin sərvətidir

### *Muxtar respublikamızda bu sərvəti qorumaq üçün geniş imkanlar yaradılıb*

Ötən əsrin 90-cı illərinin əvvəllərindən blokadaya salınan muxtar respublikamızda, demək olar ki, bütün sahələrdə vəziyyət çox ağır idi. Ermənilərin çirkin əməllərinə paralel olaraq mərkəzi hakimiyyətin də biganə münasibəti ucbatından, bir tərəfdən qədim diyarımızın işğal təhlükəsi ilə üz-üzə qalması, digər tərəfdən ərzaq qıtlığı, süfrəmizin əsas neməti olan çörəyə belə, həsrət qalmağımız, işığın, təbii qazın olmaması, bütün bunların fonunda təbiətin də bizi sınağa çəkməsi – yayın şiddətli istilər, qışın isə sərt şaxtalar ilə müşahidə edilməsi vəziyyəti daha da gərginləşdirirdi. Bu həmin vaxtlar idi ki, ölkəmizin sərhədlərində qızğın müharibə gedirdi. Ancaq, təəssüf ki, həmin vaxtlar muxtar respublikada müharibə şəraitinə uyğun səhiyyə yox idi. Xəstəxanaların özündə sığınacaqlar yaradılmamışdı ki, ekstremal hallarda onlardan istifadə etmək mümkün olsun. Həmin illərdə Naxçıvanda hərbi hospital və cərrahiyyə mərkəzi yaradılması zərurəti qaçılmaz olsa da, bunu etmək mümkün deyildi. Xəstəxana bir yana, təcili yardım maşınlarının çatışmazlığı ucbatından çətinliklər yaranır, bu isə müharibə şəraitində itkilərimizin artmasına səbəb olurdu. Amma bütün bunlara baxmayaraq, tibb işçilərimiz döyüşçülərə səngərdə, evi-eşiyini tərk etmək məcburiyyətində qalanlara isə çadırlarda tibbi yardım göstərməyə çalışırdılar. Yaxşı ki, həmin illərdə ulu öndərimiz Heydər Əliyev Naxçıvanda idi. Məhz onun ciddi səyləri nəticəsində bir sıra problemlər həll edilirdi. Tarixboyu qəhrəmanlığı ilə şan-şöhrət qazanmış diyarımızın vətənpərvər, torpağının hər qarışını qızıldan üstün tutan insanları dahi rəhbərin ətrafında yumruq kimi birləşərək bu çətin sınaqdan üzüağ çıxdılar. Lakin həmin dövrdə yaranmış vəziyyət bütün məsələləri tam həll etməyə imkan vermir, bəzi çətinliklərin aradan qaldırılması üçün zaman tələb olunurdu.

Ümidverici məqam isə ondan ibarət idi ki, ulu öndərimiz hələ sovetlər dönəmində hakimiyyətdə olduğu illərdə ölkəmizin, o cümlədən muxtar respublikamızın səhiyyə infrastrukturunun yaradılması istiqamətində əhəmiyyətli addımlar atmışdı. Yəni həmin dövrdə görülən işləri davam etdirərək Naxçıvan səhiyyəsini inkişaf etdirmək imkanları var idi. Belə ki, ümummilli liderimizin diqqət və qayğısı nəticəsində ötən əsrin 70-80-ci illərində Naxçıvan şəhərində 500 çarpayılıq muxtar respublika xəstəxanası, doğum evi kompleksi, uşaq xəstəxanası, dəri-zöhrəvi, vərəm dispanserləri, Səhiyyə Nazirliyinin inzibati binası, rayon mərkəzlərində və kəndlərdə xəstəxana binaları, feldşer-mama məntəqələri tikilib istifadəyə verilmişdi.

Lakin bütün bu tibb ocaqları blokadanın gətirdiyi bəlalarla istifadəyə yararsız vəziyyətə düşmüşdü. Belə ki, elektrik enerjisinin, təbii qazın olmaması xəstəxanaların fəaliyyətinə mənfi təsir etdiyi kimi, ölkə ilə əlaqənin kəsilməsi, burada tibbi avadanlıq və dərman preparatları ilə təminatı da yox dərəcəsinə endirmişdi. Muxtar respublika sakinləri səhiyyə ilə bağlı ciddi problemlərlə üzləşməli olmuşdular.

1992-ci ildə qeyd edilən əsas problemlərdən biri də yetərli təcili yardım maşınlarının olmaması idi ki, bu gün həmin problem də öz həllini tapıb. Ötən dövr ərzində səhiyyə ocaqlarına verilən müasir şəraitə malik təcili yardım avtomobilləri xəstələrin təxliyəsi zamanı ilkin tibbi müdaxilə və reanimasiya tədbirlərinin





aparılmasına imkan verir.

Muxtar respublikamızda səhiyyə infrastrukturunun qurulması belə deməyə əsas verir ki, bu gün Naxçıvan səhiyyəsi istənilən şəraitdə, istənilən tələblərə cavab verməkgücündədir.

Ötən dövr ərzində aparılan genişmiqyaslı səhiyyə quruculuğu işləri çərçivəsində Naxçıvan Muxtar Respublika Xəstəxanası, Diaqnostika Müalicə Mərkəzi, Doğum Mərkəzi, Duzdağ Fizioterapiya, Kardioloji, Onkoloji, Yoluxucu Xəstəliklər, Gigiyena və Epidemiologiya mərkəzləri, Psixi və Ağciyər Xəstəlikləri dispanserləri, rayonlarımızdakı xəstəxanalar, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası, ümumilikdə, 1996-2020-ci illər ərzində 200-dən artıq səhiyyə obyektinin tikilərək və ya yenidən qurularaq istifadəyə verilməsi muxtar respublikada səhiyyə sahəsində görülən işlərin əsas göstəricisidir.

Muxtar respublikanın səhiyyə sistemində aparılan islahatlara uyğun olaraq Stomatoloji Mərkəzin, Darıdağ Arsenli Su Müalicəxanasının, Duzdağ Fizioterapiya və Naxçıvan Diaqnostika Müalicə mərkəzlərinin publik hüquqi şəxsə çevrilməsi Naxçıvan səhiyyəsində yeni üfüqlər açır. Dövlət başçısı cənab İlham Əliyev muxtar respublikada uğurla həyata keçirilən səhiyyə islahatlarını yüksək qiymətləndirərək deyib: ***“Mən çalışıram və istəyirəm ki, Azərbaycanın hər bir yerində yüksək səviyyəli tibbi xidmət göstərilsin. Çox şadam ki, Naxçıvanda bu sahədə böyük işlər görülür, böyük uğurlar əldə edilir”.***

Ötən illər ərzində ölkəmizdə hərbi hospitalların tikintisi də diqqət mərkəzində saxlanılıb, bu istiqamətdə ardıcıl işlər görülüb. Belə ki, Naxçıvanda yerləşən ordu və birləşmələrin tərkibində müasir ambulatoriyaların inşası və ya yenidən qurulması diqqətdə saxlanılır. Naxçıvan şəhərində Əlahiddə Ümumqoşun Ordu üçün 4 min 92 kvadratmetr ərazini əhatə edən Mərkəzi Hərbi Xəstəxana inşa olunur. Zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət olan 398 çarpayılıq hərbi xəstəxanada hərbi qulluqçuların tibbi müayinə və müalicəsinin keyfiyyətlə aparılması üçün nümunəvi şərait yaradılacaq. Ərazisində helikopter meydançasının da olması təxirəsalınmaz hallarda xəstələrə təcili tibbi yardım göstərilməsinə imkan verəcəkdir.

Səhiyyənin inkişafına öz töhfəsini verən icbari tibbi sığortanın tətbiqi tibbi xidmətlərin səviyyəsini daha da artırır. Bu məqsədlə muxtar respublikada ilk uğurlu addımlar atılıb. Ali Məclis Sədrinin müvafiq fərmanı əsasında 2016-cı ildə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi yaradılıb. Bundan sonra ilk olaraq 2017-ci ildən bu günə kimi Sədərək, Şərur, Kəngərli, Şahbuz, Ordubad və Babək rayonlarında, Naxçıvan şəhərində icbari tibbi sığortanın tətbiqinə başlanılıb. Bu rayonların mərkəzi xəstəxanaları publik hüquqi şəxs statusu alıb, onların işçilərinin aylıq vəzifə maaşları artırılıb. Mərkəzi xəstəxanalarda yeni tibbi avadanlıqlar quraşdırılıb, bilikli və təcrübəli həkim-mütəxəssislər işə cəlb olunublar. Ötən dövrdə həyata keçirilən pilot layihələrin ilk məkanlarından birinin muxtar respublika olması da bu istiqamətdə mühüm təcrübə əldə edilməsindən xəbər verir.

Bu gün muxtar respublikanın səhiyyə sahəsində kadr təminatının təkmilləşdirilməsi də ən vacib məsələ kimi diqqət mərkəzində saxlanılır. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində və Naxçıvan Tibb Kollecində ixtisaslı həkim və orta tibb işçilərinin hazırlanması muxtar respublikanın səhiyyə ocaqlarının kadr təminatının ödənilməsinə öz töhfəsini verir. Tibb mütəxəssislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi məqsədilə müvafiq mexanizmlər yaradılır, o cümlədən xarici ölkələrdə təlimlər təşkil edilir. Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiyasının aparılması, müxtəlifprofilli elmi-praktik seminar və konfransların təşkili diqqət mərkəzində saxlanılır. Muxtar respublika xəstəxanalarının həkimlərinin mütəmadi olaraq xaricdə və ölkəmizdə təkmilləşdirmə kurslarında iştirakı onların peşəkarlığını daha da artırır. Tibb bacılarının vaxtaşırı sertifikasiya imtahanları keçirilir.

Blokada vəziyyətində yaşamasına baxmayaraq, ötən illər ərzində uğurlu yol keçən səhiyyəmiz son zamanlar daha çətin bir sınaqda – dünyanı ağuşuna alan pandemiya ilə mübarizədə çəkilən zəhmətin hədər getmədiyini bir daha sübut edir. Martın 24-də dünyada pandemiya elan olunan virusun muxtar respublika ərazisində yayılmasının qarşısının alınması ilə bağlı tədbirlərə həsr olunmuş müşavirə keçirilib. Naxçıvan Muxtar Respublikasında izolyasiya yeri kimi Yoluxucu Xəstəliklər Mərkəzi müəyyən edilib. Mərkəzdə karantinə alınan xəstələrin müayinəsi və virus aşkar edilən xəstələrin müalicəsi üçün lazımi şərait yaradılaraq ölkə başçısının göstərişinə əsasən yeni laboratoriya qurulub. Mayın 14-də Naxçıvan Muxtar Respublikasında pandemiya ilə mübarizə sahəsində görülən işlərlə bağlı tədbir keçirilib, bu məqsədlə alınmış yeni tibbi avadanlıqlar muxtar respublikanın səhiyyə müəssisələrinə təqdim olunub. İki dəst Ekstrakorporal Membran Oksigenasiya cihazı, 20 stasionar süni tənəffüs aparatı, 4 portativ süni tənəffüs aparatı, 2 hemodializ cihazı, 4 mobil rentgen cihazı, 30 infuziya pompası, 20 yataqbaşı kardiomonitor, 10 elektrosorucu, 40 funksional və pediatrik çarpayı alınıb ki, bütün bunlar bu sahədə tətbiq olunan ən müasir texnologiyaya əsaslanır.

Ötən illər ərzində muxtar respublikamız sürətli inkişaf yolu keçib, bütün sahələrdə olduğu kimi, səhiyyədə də böyük uğurlar əldə edilib. Bütün bunlara dahi rəhbər Heydər Əliyevin ideyalarına, siyasi xəttinə sədaqət nəticəsində nail olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov öz çıxışlarında dəfələrlə vurğulayıb ki, dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır. Ali Məclis Sədrinin: ***“Bu gün muxtar respublikada insanların sağlamlığının qorunması, onların müalicə və müayinəsinin yüksək səviyyədə təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Səhiyyə sisteminin maddi-texniki bazasının müntəzəm olaraq möhkəmləndirilməsi, yüksək səhiyyə xidmətinin təşkili öz bəhrəsini verir. Artıq muxtar respublikada ciddi problem yaradan xəstəliklər yoxdur, insanların sağlamlığı daim diqqət mərkəzində saxlanılır”*** fikri hər bir naxçıvanlıda böyük inam, ruh yüksəkliyi yaradır, hər birimizin qurmaq-yaratmaq əzmini artırır.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Çimərlik mövsümünə start verilib





Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov və Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev Naxçıvan şəhərində çimərlik mövsümünün açılışı münasibətilə keçirilən tədbirdə çıxış edərək 15 İyun – Milli Qurtuluş Günü münasibətilə təbriklərini çatdırıblar. Çıxışlarda bildirilib ki, muxtar respublikamızda bütün sahələrdə insanların rahatlığının təmin edilməsi üçün müxtəlif tədbirlər həyata keçirilir. Çimərlik istirahət zonasında da su və digər idman növləri üzrə yarışların, eləcə də gənclərin iştirakı ilə müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Həmçinin çimərlikdə istirahət edənlərin istifadəsinə skuter, pedallı qayıq verilib, burada futbol və voleybol meydançaları fəaliyyət göstərir.

Sonra yeni mövsümdə Naxçıvan şəhər çimərliyində həyata keçirilən tədbirlər barədə məlumat verilib, burada göstəriləcək təhlükəsizlik xidmətlərindən danışılıb.

Qeyd edək ki, yeni mövsümə başlayan çimərlikdə yüksək səviyyəli istirahət və xidmət üçün əraziyə 210 ton yeni qum verilib. Təhlükəsizlik tədbirləri də diqqətdə saxlanılıb, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən dezinfeksiya işləri aparılıb, Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşları suyun təmizliyinə dair nümunə götürüblər.

Çimərlikdə 38 çətir, 4 ədəd duş kabinəsi quraşdırılıb. Burada restoran və digər xidmət sahələri də fəaliyyət göstərir. Müşahidə qülləsi yaradılıb, xəbərdaredici və məlumatlandırıcı lövhələr vurulub. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin 6 nəfərdən ibarət xilasetmə qrupu ərazidə xidmət aparacaq.

Burada böyüklər və uşaqlar üçün nəzərdə tutulmuş iki çimərlik var. Suyun üzərində çimərlik sərhədinin qurtardığını bildirən qadağanedici nişanlar qoyulub.

✍ **Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 444